QƏRBİ AZƏRBAYCAN



*Deyirlər, insan torpaqdan yaranıb, torpağa da qovuşur. Bu, bir inanc olsa da, həm də qeyri-səlis məntiqə köklənir. Çünki insana güc, iradə, əzm və ilham verən mənsub olduğu, doğulub böyüdüyü torpaqdır. Cəmiyyətdə seçilib, nüfuz qazananlar da elə həmin torpağa, yurda bağlı olanlardır. Hər ziyalı, elm sahibi yaşadığı cəmiyyətin güzgüsü, kimliyidir. Bu mənada, seçilmiş insan peşə və ixtisasından asılı olmayaraq dövlət və xalq qarşısında vətəndaşlıq mövqeyindən çıxış etməlidir. Belə ziyalılardan biri Azərbaycanın dövlətçilik tarixində dərin iz qoymuş, böyük nüfuz sahibi, Şadlinskilər tayfasının nümayəndəsi, Rusiya Tibb Akademiyasının, Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının akademiki, professor, Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri, Əməkdar elm xadimi, "Şöhrət" ordenli Vaqif Şadlinskidir.*



# Ömrünü elmə həsr edən fədakar alim

**—Vaqif müəllim, siz böyük bir şəcərənin, nəslin nümayəndəsisiniz. Şadlinski soyadını daşımağın məsuliyyəti çoxdur, yoxsa fəxarəti?**

- Məsuliyyəti daha çoxdur. Ola bilsin, cavanlarda, gənclərdə bu fəxr hissi yaradır, mənim üçün isə böyük məsuliyyətdir. Yaşa dolduqca, bu soyadı daşımağın ağırlığını daha dərindən dərk edirəm. Bizim soyad Şadlı tayfasından qaynaqlanır. Bu 1808-ci ildə rus canişini Paskeviçin çara yazdığı məktubda öz əksini tapıb. Həmin məktubda qeyd edilir ki, "mən Şadlı tayfasının ağsaqqalı ilə görüşdüm". Rus dilində Şadlinski kimi yazıldığı üçün o vaxtdan da bu formada səslənib. Sözsüz ki, zamanla nəslimiz, tayfamız bu adı şərəflə qoruyub saxladı. Doğrudur, bəziləri öz soyadlarını dəyişdilər. Məsələn, Sultan bəyin nəslindən olanlar Sultanov, Cəlil bəyin nəvələri Cəlilov, Heydər bəyin nəslindən bəziləri Heydərov oldular. Hətta sonralar yenidən Şadlinski olanlar da oldu.

Şadlinskilər Azərbaycan tarixinə şərəfli səhifə yazıblar. Xain ermənilərə qarşı ulu babalarımız Aslan Sultan, Niftalı Sultandan tutmuş Abbasqulu bəyə qədər bütün Şadlinskilərin apardıqları mübarizəni yada salmaq kifayətdir.

**—Məlumdur ki, sizin tayfanın kökü, şəcərəniz hətta Şəddadilər dövlətinə gedib çıxır. Belə bir məlumat da var ki, Şadlı tayfası Göytürk xaqanlığı dövründə həmişə vəzir titulanda olub.**

- Bəli, biz özümüzü Şəddadilər dövlətinin əsasını qoyan Şadlıların nəticələri hesab edirik. Maraqlı bir faktı qeyd edim ki, son illər DNK-mı Amerikaya göndərdim. Onlardan cavab gəldi ki, bəli, mən Şəddadi tayfasına məxsusam. Lakin onlara göndərdiyim sənəddə doğulduğum yox, indi yaşadığım ünvanı göstərmişdim. Cavab sənədində isə ünvan Ermənistan göstərilmişdir. Əlbəttə, onlar ünvanı doğru yazmışdılar, mən Qərbi azərbaycanlıyam və orada doğulmuşam. Qərbi Azərbaycanda ən güclü və inkişaf etmiş xanlıqlardan biri İrəvan xanlığı idi. Fars dövləti də çalışırdı ki, bu xanlığı parçalasın. Onlar İrəvan xanlığında yaşayan azərbaycanlıları tatar, məktəbimizi isə rus-tatar məktəbi adlandırırdılar. Lakin bütün bunlara baxmayaraq, insanlar hər zaman inkişafa, elmə və tərəqqiyə meyil ediblər. Bu, özünü deportasiya dövründə də göstərdi. Azərbaycanın müxtəlif rayonlarında məskunlaşmış soydaşlarımız həmin ərazilərdə yüksək vəzifələrdə çalışmağa, elm, təhsil sahəsində seçilməyə başladılar. Bilirsiniz, oranın abhavası başqa idi. İnsanlar ərazini, bölgəni inkişaf etdirməyə çalışırdılar. Deportasiya illərində də Qərbi azərbaycanlılar köçdükləri ərazilərə inkişaf və tərəqqi gətirdilər. İnsanların savadlanması üçün əllərindən gələni etdilər.

**—Yurda, elə-obaya, soykökə bağlı insansınız. Bu qüvvəni nədən alırsınız?**

- Bu qüvvəni aid olduğum yurddan alıram. Torpağa bağlı insan heç vaxt gəldiyi, doğulduğu yeri unuda bilmir. Mən Qərbi Azərbaycanda anadan olmuşam. 8 yaşım olanda ailəm deportasiya nəticəsində köçmək məcburiyyətində qalıb. Yurdu, torpağı tərk etmək isə qonşudan, dostdan məhrum olmaq deməkdir. Uşaqlıq illərini qoyub gəldiyin yerləri heç cür unuda bilmirsən. Birdən-birə tanımadığın yerə düşür, yeni insanlar görürsən, bəzən uyğunlaşa bilmirsən. Hətta qismət elə gətirib ki, doğma yurdundan deportasiya olunan ailəm deportasiya olunanın evində qalıb. Biz Qərbi Azərbaycandan köçüb Şəmkirə gələndə orada alman evində yerləşdik. Hansı ki, onlar da deportasiya olunmuş insanlar idilər. Bilirsiniz, bu, o dövrün bir siyasəti idi. Azərbaycana almanları, malakanları, erməniləri ona görə gətirib yerləşdiriblər ki, Qafqazda, əsas da ölkəmizdə islamı ləğv etsinlər. Buna nail ola bilməsələr də, dayanmadılar, bizə qarşı ərazi iddialarından əl çəkmədilər. Qərbi Azərbaycan torpaqlarını boşaltdıqdan sonra Qarabağı işğal etdilər, 30 il olmazın müsibətini başımıza gətirdilər. Amma Müzəffər Ali Baş Komandan İlham Əliyevin sayəsində problemi həll etdik.

**—Vaqif müəllim, hazırda Qərbi Azərbaycana qayıdış istiqamətində mühüm addımlar atılır. Qərbi Azərbaycan İcması da bu işdə fəal iştirak edir. İnşallah, bir gün də Qərbi azərbaycanlıların doğma yurdlara köçü başlayacaq. Vediyə qayıdışınızı necə təsəvvür edirsiniz?**

- Bu mənim üçün çox ağır bir prosesdir. Bizim mahalın camaatı Azərbaycanın, demək olar ki, bütün rayonlarında yerləşib. İnsanlar yurd-yuvasından didərgin, qohumlar bir-birindən aralı düşüblər. Doğrudur, kövrək, həssas hisslərdir, amma bir an olsun o yerləri unuda bilmirəm. Vedidən gətirdiyimiz bəzi əşyaları, fotoşəkilləri hələ də saxlayıram. 1980-ci illərdə 2 dəfə Vediyə getdim, ermənilər evimizə buraxmadılar. Bizim ev məktəbin arxasında idi. 1800-cü illərin axırlarında rus çarı Nikolay ikimərtəbəli məktəb binasını orada yaşayan türk uşaqlarına hədiyyə kimi tikdirmişdi. Babam, atam həmin məktəbi bitiriblər. Atam 23 il o məktəbin direktoru işləyib. Abbasqulu bəy Şadlinskinin qəbri də həmin məktəbin qarşısında idi. 1983-cü ilin noyabr ayında məktəbin 100 illiyində atamla iştirak etmişəm. Atam tədbirdə çıxış edəndən sonra ermənilər təşvişə düşdülər ki, bunları kim dəvət edib, o ərəfədə evimizə gedə bilsək də, qəbristanlığa qoymadılar. Bəzi ermənilər bizə bildirdilər ki, gecəni Vedidə qalmayın. Gedib Şidli kəndində qaldıq. Hazırda Qərbi Azərbaycana qayıdış istiqamətində mühüm işlər görülür. İnanıram ki, yaxın gələcəkdə ata-baba yurdlarımıza dönüb, yenidən oranı çiçəkləndirəcəyik. Bu hissi yaşamaq lazımdır. Mən bu gün bütün varlığımla Vediyə qayıtmağa hazıram.

**—Hazırda suveren, müstəqil, ərazi bütövlüyünü tam təmin etmiş Azərbaycanda yaşayırıq. Əlbəttə ki, bu da Ali Baş Komandan İlham Əliyevin yürütdüyü siyasətin nəticəsidir. Bununla bağlı nə deyərdiniz?**

- Bilirsiniz, bu, çox böyük bir tarixdir. Prezident İlham Əliyev milləti, xalqı birliyə səsləyib, ərazi bütövlüyümüzü bərpa etdi. Bu qələbə ilə tarixi ədalət zəfər çaldı. Azərbaycan gəncliyi Liderinə inanaraq gücünü nümayiş etdirdi və qələbə qazandı. Birinci Qarabağ müharibəsi zamanı ölkə tamamilə dağınıq və pərakəndə vəziyyətdə idi. Lakin ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişi bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da müsbət irəliləyişlərə səbəb oldu. İnsanların dövlətə inamı özünə qayıtdı. Bu gün Prezident İlham Əliyev əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlətçilik siyasətini layiqincə davam etdirir. Uğurlarımız göz qabağındadır. Azərbaycanın nüfuzu beynəlxalq aləmdə durmadan artır. Müharibə bitdikdən sonra Yevlaxda erməni nümayəndələrlə ilk görüş təşkil edildi. Bir vaxtlar ermənilər deyirdilər ki, Yevlağa kimi gedəcəyik. Onlara sübut olundu ki, siz gələ bilərsiniz, amma necə? Əlbəttə ki, o sözü deyənlərin bəziləri bu gün Bakıya gələ bilib, lakin necə gəlib o da məlumdur. Ekofəalların Laçın koridorunda mübarizəsi zamanı Azərbaycan gəncləri qarda, boranda bir gün belə oranı tərk etmədilər. Əlbəttə, tərbiyənin kökü ailədən gəlir, övladlarımızı vətənpərvər ruhda yetişdirməliyik. Dağlara, sıldırım qayalara dırmaşıb Şuşanı azad edənlər Azərbaycanın belə vətənpərvər mərd, qorxmaz gəncləridir.

**—Ulu öndər Heydər Əliyevlə görüşləriniz olub. Bu görüşləri necə xatırlayırsınız?**

- Dahi liderlə dəfələrlə görüşmüşəm, ulu öndərlə görüşəndə həyəcanlanır, nitqim tutulurdu. Məndən soruşurdu ki, işlərin necədir, nə çətinliyin var? Cavab verirdim ki, sizə cansağlığı arzu edirəm. Hansı ki, həmin dövrdə məni çox sıxırdılar, təzyiqlər var idi. Amma deyə bilmirdim. Üç dəfə Tibb Universitetinə gəlib. Güclü yaddaşı var idi. Bir dəfə gördüyü insanı yaddan çıxarmazdı. Kiminlə görüşürdüsə, onun haqqında bütün məlumatı olardı. Heydər Əliyev böyük şəxsiyyət idi. Xatırlayırsınız, Milli Məclisdə ona olan hücumları. Amma o hakimiyyətə gələndə həmin insanlara toxunmadı. Başqası olsaydı, cəzalandırardı onları. Çox diqqətli insan idi. Hər şeyi dəyərləndirərdi.

**—Uzun müddət pedaqoji fəaliyyət göstərmisiniz. Ölkəmizlə yanaşı, beynəlxalq aləmdə də kifayət qədər uğurlarınız, xeyli sayda yetirmələriniz, tələbələriniz var. Bu barədə nə deyə bilərsiniz?**

- 2009-cu ildə Avropa Təbiət Elmləri Akademiyasının həqiqi üzvü seçilmiş və Akademiyanın "Albert Şveytser" medalı ilə mükafatlandırılmışam. 2009-cu ildə üzv olduğum Türkiyənin Uluslararası Araşdırmalar Akademiyasının qızıl medalına layiq görülmüşəm. BMT tərəfindən təsis olunmuş "I dərəcəli Hippokrat ordeni" və Hannoverdə beynəlxalq Konqresin təşkilat komitəsi tərəfindən "Robert Kox" medalı ilə təltif edilmişəm. "Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyəti" İctimai Birliyinin və 2021-ci ildən Nəsimi Rayon Ağsaqqallar Şurasının sədriyəm. Ölkəmizdə dərc olunan bir sıra nüfuzlu və beynəlxalq aləmdə tanınmış elmi jurnalların - o cümlədən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Azərbaycan Tibb Jurnalı", Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsil", Azərbaycan Tibb Universitetinin "Sağlamlıq" jurnallarının Redaksiya Şurasının üzvü, 600-dən artıq elmi əsərin, 18 monoqrafiyanın, 46 dərsliyin, 23 tədris-metodik vəsaitin, "İnsan anatomiyası üzrə Atlas"ın, Azərbaycan, rus, ingilis və latın dillərində "Anatomik terminologiya"nın müəllifiyəm. O ki qaldı tələbələrimə, hamısını xatırlayıram. 7 nəfər elmlər doktoru, 30-a yaxın elmlər namizədi yetişdirmişəm, 15 nəfərin isə elmi rəhbəri olmuşam. Əksər xarici ölkələrdə elmi məqalələrim çap olunub. Bu günlərdə Rusiya Elmlər Akademiyasının prezidenti akademik Gennadi Krasnikov tərəfindən Fəxri fərmanla təltif olunmuşam.

**Müsahibəni apardı:**
**Ramidə YAQUBQIZI,**
**"Respublika".**







